# Möhtəşəmliyi ilə tarixə düşən musiqi bayramı

## Avropa və Azərbaycan bəstəkarlarının əsərləri səsləndirilib



Festivalın üçüncü günü - iyulun 31-də Azərbaycanın tanınmış musiqiçilərinin iştirakı ilə növbəti kamera konserti olub.

Konsertdə M.Ravelin “Gecə kəpənəkləri”, “Qəmgin quşlar”, S. Prokofyevin “Aldanma”, S. Raxmaninovun “Yuxu”, F. Əmirovun “Azərbaycan elləri”, E. İbrahimovanın “Ey Vətən”, A. Yusifovanın “İthaf” əsərləri, A. Məlikovun “Məhəbbət əfsanəsi” baletindən Noktürn, J. Offenbaxın “Qofmanın nağılları” operasından “Gəlincikin ariyası”, Ü. Hacıbəylinin “Koroğlu” operasından Həsən xanın ariyası, A. Rubinşteynin “Neron” operasından “Epitalama” səsləndirilib.



## Musiqiçilərin ifası alqışlarla qarşılanıb

İyulun 31-də Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının “Baku Chamber Orchestra” Kamera Orkestrinin konserti olub. Orkestri əməkdar incəsənət xadimi, Prezident təqaüdçüsü, dirijor Fuad İbrahimov müşayiət edib. Konsertdə P.Sarasatenin “Navarra”, A. Vivaldinin “İlin fəsilləri” silsiləsindən “Yay”, F. Əmirovun “Nizami”, F. Bədəlbəylinin “Dəniz” simfoniyası, L. Andersonun “Plink-Plank-Plunk”, Niyazinin “Qaytağı” əsərləri səsləndirilib.

Sonra isə konsertdə Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının solisti, xanəndə Arzu Əliyevanın çıxışı olub. Musiqi gecəsində “Gəl bizə”, “Sarı gəlin”, “Qaragilə” xalq mahnıları ifa olunub.

Musiqiçilərin çıxışı yerli və xarici tamaşaçılar tərəfindən alqışlarla qarşılanıb.

## Azərbaycan, İsrail və ABŞ-ın tanınmış musiqiçilərinin konserti

Festivalın proqramına uyğun olaraq avqustun 1-də Azərbaycan, İsrail və ABŞ-ın tanınmış musiqiçilərinin konserti olub. Uğurla reallaşan növbəti kamera konserti də olduqca maraqlı ifalarla yadda qalıb. Bir səhnədə yer alan tanınmış musiqiçilər - Azərbaycan Dövlət Filarmoniyasının direktoru, professor, pioanoçu Murad Adıgözəlzadə, İsrailin Yerusəlim Simfonik Orkestrinin konsertmeysteri, Yerusəlim Musiqi Konservatoriyasının müəllimi, tanınmış violin ifaçısı Janna Qandelman, festivalın bədii rəhbərlərindən biri, “Kiyev virtuozları” Orkestrinin musiqi rəhbəri, İsrailin Yerusəlim Simfonik Orkestrinin dirijoru, dünya şöhrətli violonçel ifaçısı Dmitri Yablonski, Təl-Əvivdəki “Buchman-Mehta” Musiqi Akademiyasının, Sadna Konservatoriyasının müəllimi, valtorna ifaçısı Mixail Slatkin çıxış edərək bəstəkar İohannes Bramsın, Fikrət Əmirovun, Sergey Raxmaninovun unudulmaz əsərlərini ifa ediblər.

Həmçinin konsertdə Azərbaycanın gənc pianoçuları Səidə Tağızadə, Elxan Niftiyev və viola ifaçısı Rəna Rəhimova Avropa bəstəkarlarının əsərlərini səsləndiriblər.





## Böyük Britaniyanın «FeMusa» Kamera Orkestrinin çıxışı maraqla qarşılanıb

IX Qəbələ Beynəlxalq Musiqi Festivalı çərçivəsində növbəti konsert proqramını avqustun 1-də açıq səhnədə Böyük Britaniyanın “FeMusa” Kamera Orkestri təqdim edib.

Orkestrin çıxışı tamaşaçılar tərəfindən böyük maraqla qarşılanıb.

2008-ci ildə Böyük Britaniyanın istedadlı qadın musiqiçiləri tərəfindən təşkil olunan “FeMusa” müasir bəstəkarların əsərləri ilə çıxış edir. Orkestrin repertuarına ənənəvi Qərb musiqisi ilə yanaşı, nadir və az tanınan əsərlər daxildir.

Britaniyalı musiqiçilər A. Vivaldi, E. Elqar, P. Uarlok, P. Levis, E. Bloq, K. Cenkins, F. Əmirov və Q. Qarayevin əsərlərini səsləndiriblər.

## Gənc istedadlar tamaşaçılara unudulmaz anlar yaşadıb

IX Qəbələ Beynəlxalq Musiqi Festivalı çərçivəsində avqustun 2-də təşkil olunan növbəti kamera konserti maraqlı ifalarla yadda qalıb.




Azərbaycanın gənc musiqiçiləri - bir sıra beynəlxalq müsabiqələrin laureatı, adı Azərbaycanın gənc istedadlarının “Qızıl kitabı”na daxil edilən, Prezident təqaüdçüsü, hazırda İtaliyanın Ozimo şəhərində təhsil alan Məhərrəm Hüseynov (bariton), İtaliyanın Milan şəhərindəki “La Scala” Akademiyasında təhsilini davam etdirən Azər Rzazadə (tenor), “La Scala” Akademiyasının uşaq xorunun üzvü olan 9 yaşlı italiyalı Canluicci Sartori (tenor) və Y.Obraztsova adına Beynəlxalq Musiqi Akademiyasının solisti Elnarə Məmmədova (soprano) S. Raxmaninov, C. Puccini, G. Hendel, A. Məlikov, A. Zeynallı və F. Bədəlbəylinin unudulmaz əsərlərini ifa ediblər.

Musiqiçiləri pianoda beynəlxalq müsabiqələrin qalibi, Bratislava Musiqi və İfaçılıq Sənəti Universitetinin məzunu Müşfiq Quliyev müşayiət edib.

## Azərbaycan Dövlət Simfonik Orkestrinin konserti tamaşaçıların böyük marağına səbəb olub



Festivalın növbəti günü- avqustun 2-də açıq səhnədə Üzeyir Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestrinin konserti olub.

Möhtəşəm musiqi axşamında orkestri xalq artisti dirijor Rauf Abdullayev və əməkdar artist dirijor Fuad İbrahimov idarə ediblər. Konsertdə Azərbaycan Dövlət Filarmoniyasının direktoru, pianoçu Murad Adıgözəlzadə, Bakı Musiqi Akademiyasının prorektoru, pianoçu Yeganə Axundova, Sloveniyanın Lyublyana Musiqi Akademiyasının professoru, arfa ifaçısı Moyka Zlobko Vayql, İtaliyanın Emilya Romanya Festivalının bədii rəhbəri, fleyta ifaçısı Massimo Merçelli Azərbaycan və Avropa bəstəkarlarının əsərlərini səsləndiriblər.